Azərbaycan Dövlət İqtisad Universiteti

İQTİSADÇI

№83 (863)

Noyabr 2015

"MƏZUN-2015" YARMARKASI: bilik və bacarıqları nümayiş etdirmə meydanı

Noyabrın 28-də məzunların işlə təmin olunmasına kömək məqsədilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Təhsil Nazirliyinin dəstəyi ilə Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) "Məzun-2015" əmək yarmarkası keçirilib.

UNEC-in 85 illik tədbirlər planı çərçivəsində keçirilən yarmarkada 50-dən çox dövlət qurumu, şirkət və banklar tərəfindən çoxsaylı vakant iş yerləri təqdim edilib.

Əmək yarmarkasında UNEC də daxil olmaqla, Azərbaycanın 40-dan yuxarı ali və orta ixtisas təhsili müəssisəsindən, o cümlədən dünyanın (ABŞ, Türkiyə, Rusiya, Böyük Britaniya və s.) 16 ali məktəbindən 2500-ə yaxın məzun işturak edib.

Təhsil nazirinin müavini Firudin Qurbanov, gənclər və idman nazirinin müavini İntiqam Babayev, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Yanında Dövlət Məşğulluq Xidmətinin rəisi Anar Bədəlbəyli və UNEC-in rektoru, professor Ədalət Muradov yarmarkaya baxış keçiriblər. Dövlət və özəl qurumların nümayəndələri, işəgötürənlər rektor və qonaqlara vakant iş yerləri haqda məlumat veriblər.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti və Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) arasında kadr potensialının gücləndirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi haqqında Anlaşma Memorandumu imzalanıb. UNEC-in rektoru Ə.Muradov bildirib ki, məzunların işlə təmin olunması universitetlərin reytinqinə bilavasitə təsir etdiyindən bu məsələ UNEC-in prioritet istiqamətlərindən biri hesab olunur. İnanıram ki, universitetimizdən məzun olan hər bir gənc özünə layiqli iş tapa biləcək.

"Məzun-2015" yarmarkasında gənclərə 800-dən çox vakant iş yerləri təklif olunub. Yarmarkada məzunların dövlət və biznes strukturlarının nümayəndələri ilə görüşləri təşkil edilib. Onlara müxtəlif ixtisaslar üzrə staj keçmə, təqaüd və təcrübə proqramları da təqdim edilib.

Yarmarkanın sonunda müraciət edən bütün məzunların CV-ləri dövlət qurumlarına və özəl şirkətlərə təqdim edilib.

Tələbələrimizin karyera inkişafına önəmli töhfə

Noyabrın 18-də Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) və Dünya Bankının birgə "Sosial Müdafiənin İnkişafı Layihəsi" çərçivəsində fəaliyyətə başlayan Virtual müəssisənin açılışı olub.

Açılışda təhsil naziri Mikayıl Cabbarov, əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov, UNEC-in rektoru, professor Ədalət Muradov, Dünya Bankının Azərbaycan nümayəndəliyinin rəhbəri Larisa Leşenko, universitetin müəllim və tələbə heyəti, eləcə də digər qonaqlar iştirak ediblər.

Qonaqlarla birgə virtual müəssisənin fəaliyyətinə baxış keçirilib. Təcrübə müəssisəsi haqqında ümumi məlumat verilərək bildirilib ki, Virtual müəssisədə gün ərzində 40 tələbənin qəbul edilməsi mümkün olacaq. Bu isə öz növbəsində həftədə 200 tələbənin layihədən faydalanması deməkdir. Təcrübə hər komanda üçün 3 ay müddətinə keçiriləcək. Təcrübə zamanı tələbələrə iqtisadi qanunvericilik, kommersiya hüququ, bank işi, mühasibat uçotunun beynəlxalq standartları və müxtəlif mövzularda təlimlər keçirilməklə, əmək bazarının tələblərinə uyğun olaraq hazırlanacaqlar. İştirakçıları müəssisələrin maliyyə-mühasibatlıq bölmələrində istifadə olunan müasir proqram təminatlarına yiyələnmələrinə və istifadə etmələrinə şərait yaradılacaq. Təcrübə zamanı virtual müəssisənin standartlarına uyğun olaraq onlar, müxtəlif maliyyə, mühasibat, vergi, bank əməliyyatlarını həyata keçirəcək və marketinq tədqiqatları aparacaqlar. Əlavə olaraq, müxtəlif ölkələrdəki virtual müəssisələrlə əməkdaşlıq və biznes əlaqələri quracaq və şirkətin xidmətlərini təklif edəcəklər. Bu isə onların beynəlxalq biznes mühitini bilən kreativ menecerlər olaraq yetişməsinə yardım edəcək.

Sonda nümunə kimi Avropanın virtual müəssisələrindən biri ilə onlayn rejimdə biznes əməkdaşlığına dair ticarət sövdələşməsi aparılıb.

Azərbaycan və Rusiyanın təhsil nazirləri SABAH qrupları ilə tanış olub

Bakıda səfərdə olan Rusiyanın təhsil və elm naziri Dmitri Livanov Azərbaycanın təhsil naziri Mikayıl Cabbarovla birlikdə Azərbaycan Dövlət İqtisad Universitetində SABAH qruplarının tələbələri ilə görüşüb.

Qonağa SABAH layihəsi haqqında məlumat verilib. Layihəni müsbət dəyərləndirən Rusiyanın təhsil və elm naziri bu sahədə təcrübə mübadiləsi aparmağı təklif edib.

ƏSL ALİM ÖZÜNÜ DAİMA TƏLƏBƏ HİSS EDƏNDİR

Noyabrın 11-də Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) "Ümumdünya Elm Günü"nə və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) 70 illiyinə həsr olunan "Elm Günləri"nə start verilib.

Universitetin rektoru, professor Ədalət Muradov bildirib ki, "Elm Günləri" UNEC-də elmi tədqiqatların stimullaşdırılması məqsədi ilə atılan addımlardan biridir. Tədbirin həmçinin AMEA-nn 70 illik yubileyinə həsr edildiyini vurğulayan rektor əlavə edib ki,bu münasibətlə UNEC-in gənc tədqiqatçı, magistrant və tələbələri arasında elmi məqalə müsabiqəsi elan edilib. Tədbirin sonuncu günü müsabiqəyə yekun vurulacağını qeyd edən rektor, qaliblərin mükafatlandırılacaqlarını bildirib.

Rektor bildirib ki, istəyimiz ondan ibarətdir ki, tədrislə yanaşı, UNEC-də elmi tədqiqatlara yer ayrılsın. İstəyirik ki, Azərbaycanın qarşısında duran sosial-iqtisadi problemlərin həllində alimlərimiz fəal olsunlar.

Ə.Muradov ötən dövr ərzində UNEC-də elmi-tədqiqat infrastrukturunun yaradılması istiqamətində atılan addımlardan danışıb. Bildirib ki, universitetdə bir neçə elmi-tədqiqat laboratoriyası yaradılıb. Bu, "İnkişaf İqtisadiyyatı", "İslam İqtisadiyyatı" və "Avropa İqtisadiyyatı" laboratoriyalarıdır. İndi həmin loboratoriyalarda məhsuldar işləyə biləcək tədqiqatçıları seçirik və düşünürəm ki, buna nail olacağıq. "İnkişaf iqtisadiyyatı" labaratoriyası artıq bir tədqiqat layihəsinə start verib və bununla bağlı qrant udub. Həmin layihə "Azərbaycan neftinin dünya bazar qiymətinin proqnozlaşdırılması" layihəsidir. Düşünürük ki, layihənin nəticəsini bir ildən sonra geniş elm ictimaiyyətinə təqdim edəcəyik.

UNEC-də elmi fəaliyyətin stimullaşdırılması yönündə atılan addımlardan söz açan rektor, ölkə ali təhsil müəssisələri arasında ilk dəfə differensial əməkhaqqı sisteminə keçiddən danışıb. Bildirib ki, yeni sistem şərait yaradır ki, müəllimlərin elmi tədqiqatlarına uyğun olaraq, əmək haqqlarına əlavələr edilsin. Sistemə görə, müəllimin əmək haqqı iki dəfə artırıla bilər.

AMEA-nın vitse-prezidenti, əməkdar elm xadimi,akademik, İsa Həbibbəyli Ulu Öndər Heydər Əliyevin Azərbaycan elminin inkişafındakı rolundan danışıb. Bildirib ki, H.Əliyev hələ Azərbaycana ilk rəhbərliyi dövründə xalqın ümumi intellektual səviyyəsini yüksəltmək üçün böyük işlər görüb. Əminliklə deyə bilərəm ki, Azərbaycan elminin qızıl dövrü həmişə Ulu Ondərin rəhbərlik etdiyi dövrə təsadüf edib deyən akademik, bu gün Azərbaycan Prezidenti İlham Əliyevin həmin siyasəti uğurla həyata keçirdiyini vurğulayıb. Dövlət başçısının AMEA-nın 70 illik yubileyindəki çıxışı ölkənin bütün elm adamlarına göstərilən yüksək dövlət qayğısının nümunəsi idi.

AMEA-nın tarixinə qısa nəzər salan İ.Həbibbəyli akademiyanın inkişafında rolu olan alimlərdən danışıb. Qeyd edib ki, elm tarix boyu cəmiyyətin inkişafında böyük rol oynayıb. Hansı ölkədə elm yüksək səviyyədə inkişaf edibsə, orada dövlətçilik də, cəmiyət həyatının digər sahələri də həmişə öndə olub. Elmin öyrənilməsində müəllimlərin rolu əvəzsizdir deyən akademik, UNEC-də güclü professor – müəllim heyətinin olduğuna diqqət çəkib. Araşdırmalara görə ən yaxşı müəllim dərsdə tələbəyə ali məktəb məzmununa aid olan elmi biliyin 30 faizini verir. 40 faizini tələbə özü kitablar vasitəsi ilə əldə edir. 30 faizi isə tələbəyə universitet mühiti verir deyən akademik, UNEC-də gənc nəslin təlim və tərbiyəsi üçün yüksək səviyyədə mühit qurulduğunu bildirib.

Sonra UNEC-in İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutunun direktor müavini, professor Rövşən Quliyev "Elmin iqtisadi inkişafda rolu" mövzusunda məruzə ilə çıxış edib.

"Elm Günləri" müasir cəmiyyətdə iqtisad elminin əhəmiyyəti barədə plenar iclaslarla davam etdiriləcək. İxtisas kafedralarında tematik dəyirmi masalar, həmçinin tanınmış alimlərlə görüşlər və elmi mühazirələr də təşkil ediləcək.

ELMİ MÜSABİQƏNİN QALİBLƏRİ:

Qiyasova Zeynəb Həbibaga qızı – "İqtisadiyyatın tənzimlənməsi kafedrası"nın dissertantı.

Abdullayeva Səyyarə Nicat qızı: - Magistratura məktəbində 2-ci kurs tələbəsi.

Əhmədova Nazənin Nadir qızı: -"Maliyyə-mühasibat fakültəsi"nin 4-cü kurs tələbəsi.

Gənc müəllimlərin təntənəli andiçmə mərasimi

"Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına riayət edərək Azərbaycan təhsilinin ənənələrinə sadiq qalacağıma, keyfiyyətli təhsil xidməti göstərəcəyimə, peşəkar fəaliyyət zamanı qeyri-etik davranışın hər hansı bir formasına yol verməyəcəyimə, həmkarlarım, təhsil alanlar, valideynlər və digər şəxslərlə münasibətləri hörmət, şərəf və ləyaqət əsasında quracağıma, müəllim adını və şərəfini uca tutacağıma and içirəm".

6 noyabrda Azərbaycan Dövlət İqtisad Universitetinə işə qəbul olunan gənc müəllimlərin dövlət himninin sədaları altında Azərbaycan Respublikası konstitusiyasına təntənəli surətdə andiçmə mərasimi keçirilmişdir. Tədbirdə çıxış edən Unec – in rektoru prof. Ədalət Muradov andiçmə mərasiminin ölkəmizdə ilk dəfə bizim universitetdə keçirildiyini deyərək, bu tədbirin müəllimlərin məsuliyyətini daha da artıracağına əmin olduğunu və işə yeni qəbul edilən 16 gənc müəllimin gələcək müəllimlər üçün də nümunə olacağını vurğulayıb. " Bu andı içməklə müəllimlər öz üzərlərinə şərəfli və ağır bir yükü götürürlər. Bu müqəddəs vəzifəni layiqincə yerinə yetirəcəyinizə ürəkdən inanıram".

Gənc müəllimlərin bizim qarşımıza qoyduğumuz məqsədlərə çatmağımızda önəmli rolu olduğunu qeyd edən prof. Ədalət Muradov, ötən il 121 gənc müəllimin UNEC-ə işə qəbul edildiyini və bu tədris ilində isə daha 20 müəllimin cəlb ediləcəyini bildirib.

Daha sonra Təhsil Naziri Mikayıl Cabbarovun universitet heyətinə təbrikini çatdıran Təhsil Nazirliyinin sektor müdiri Sülhəddin Gözəlov bildirib ki, Azərbaycan Dövlət İqtisad Universiteti regionun ən böyük iqtisadiyyat yönümlü universitetidir. Gənc və savadlı müəllimlərin universitet heyətinə qatılması ilə UNEC dünya səviyyəli bir universitetə çevriləcəkdir. Sülhəddin Gözəlov and içən gənc müəllimlərə uğurlar arzulayıb.

UNEC - in professoru Marifə Hacıyeva, bu tədbirin müəllimlərə qarşı olan inam və etimadı artıracağına inandığını və gələcəkdə bütün müəllimlərə şamil olunmasının vacibliyini qeyd edib.

Onu da qeyd edək ki, bir dəfə keçiriləcək andiçmənin şifahi şəkildə deyilən mətni yazılı olaraq müəllim tərəfindən imzalanmaqla, onun şəxsi işində saxlanılacaqdır.

Pakistanda müəllimlərin andiçməsi

Filippində peşəkar müəllimlər and içir

Tatarıstanda müəllim andiçmə mərasimi musiqi nömrələri ilə müşayiət olunur

UNEC-in yubiley tədbirlərinin intellektual startı

Hava kifayət qədər şaxtalı idi. Bir neçə günlük aramsız yağışın palçığı hələ də ayaqqabılarda iz buraxırdı. Bəlkə də, kimsə bu şənbə günü evdə istilikdə oturub çöldəki insanlara baxaraq "Görəsən, bu havada evdən çıxmağa dəyərmi? Hara?" – deyə düşünürdü. Amma Azərbaycanın intellektual gəncliyi bu fikirlə razı olmazdılar: onlar hamısı beyin yarışının mərkəzinə çevrilmiş Azərbaycan Dövlət İqtisad Universitetindı idilər və artıq 85 illiyini qeyd edən bu sözün hər mənasında qocaman ali təhsil ocağının intellect işığına toplaşmışdılar.

"İqtisadçı" qəzetinin baş redaktoru, "Turan" intellektual oyunlar klubunun üzvü Anar Eyyubov ilk növbədə Azərbaycan mədəniyyəti və tarixini təbliğ etmək məqsədi duyan "Doğma dil" kubokunu keçirirdi. Ölkənin 10-dan çox aparıcı universitetlərinin tələbələrindən və məzunlarından ibarət 17 komanda arasında əksəriyyəti "Nə? Harada? Nə zaman?" oyunun peşəkarları olsa da, bu sahədə ilk addımlarını atan komandalar da var idi. Himnin səsləndirilməsindən sonra oyunçulara öncə universitet adından Marketinq və Kommunikasiya departamentinin direktoru Rasim Şərifov müraciət etdi. Natiq gənclərə ektor, professor Ədalət Muradovun salamlarını çatdırdı, komandalara yarışda uğurlar arzuladı.Növbəti çıxışçı, yarışın sponsoru AccessBank-ın nümayəndəsi Könül xanım təmsil etdiyi bankın intellektual gəncliyə daima dəstək nümayiş etdirməyə hazır olduğunu, gənclərin yaşlarına məxsus olan imkanlardan səmərəli, ağılla istifadə etməyə, bilik və vərdişlərini inkişaf etdirməyə səslədi.

3 tur və 36 sualdan ibarət yarış ənənəvi bu tipli yarışlardan xeyli fərqlənirdi. Təşkilatçılar bir komandanın belə hədiyyəsiz qalmamsına çalışdılar. Güclüyə erudisiyasına, zəifə həvəsləndirmək məqsədi ilə simvolik hədiyyələr verilirdi: qum saatı, xurma, bal, milli kinolar diski, ədiblərimizin kitabları və s. Hədiyyələr, ayrı-ayrı sualların cavablarının şərhi olaraq nümayiş etdirilən kinofraqmentlər və şəkillər nəinki oyunçular, izləyən sponsorun, universitetin nümayəndələri tərəfindən də maraqla qarşılanırdılar. Bundan başqa, əsl müəllim səbri ilə aparıcı tələbələrin suallara, hədiyyələrə, cavablara öz reaksiyalarını, münasibətlərini sərbəst şəkildə ifadə etməyə imkan verirdi.

Qeyd edək ki, oyun zamanı daha xoş bir sürpriz baş verdi.

Universitetin Tələbə Gənclər Təşkilatının nümayəndələri qalib 3 komandanın üzvləri üçün (yəni 18 nəfərə!) Milli futbol çempionatımızın "Neftçi" – "Zirə" oyununa təmənnasız olaraq biletlər təqdim etdilər.

Son tura qədər davam edən mübarizədə birinci yeri "Vendomat" komandası (fərəhli haldır ki, komandanın kapitanı UNEC-in magistraturasında təhsilini bitirmək üzrə olan Türyan Məmmədovdur), ikinci və üçüncü yerləri müvafiq olaraq "HİT" və "Dream Team" komandaları tutdular. Qaliblərə kuboklar və matça biletlərlə bahəm nəfis kitablar, zirvəyə ucalan "Vendomat"a isə orijinal çin şahmat dəsti hədiyyə edildi.

Tədbiri tərk edən yorğun, lakin razı gənclər təşkilatçıya, son sualda cavab olaraq adı çəkilən İqtisad Universitetinə öz təşəkkürlərini ifadə etdilər. Əminliklə söyləmək olar ki, UNEC-in 85 illik yubiley tədbirlərinin ilk addımı uğurlu oldu.

BMT MODELİNİN SİMULYASİYASI KEÇİRİLDİ

Təqribən 5-6 ay öncə BMT modelinin təqdimatını təşkilatçısı kimi model, onun tələbələr üçün əhəmiyyəti haqqında xeyli məlumat əldə etdim və ilk növbədə bu prosesə Beynəlxalq İqtisadi Münasibətlər fakültəsinin tələbələrini dəvət etmək qərarına gəldim. İki gün davam edən təqdimat zamanı tezliklə onun universitetimizdə reallaşacağı ümidi ifadə edildi.

Və budur - artıq noyabrın 28-də Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Birləşmiş Millətlər Təşkilatının (BMT) modelinin "ECOSOC" şurasının formatında konfrans keçirildi. Konfransın məqsədi Azərbaycanda diplomatiya və Beynəlxalq Əlaqələr sahəsində təhsil alan tələbələri BMT-nin iş prinsipləri ilə yaxından tanış etmək və gələcəyin diplomatlarının hazırlanmasına töhvə verməkdir. Tələbələr öncədən verilmiş mövzu üzrə araşdırma aparmış və təyin olunduqları ölkələrin iqtisadiyyatını, tarixini və siyasi münasibətlərini öyəniblər.

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin və Azərbaycan Dövlət İqtisad Universitetinin birgə dəstəyi və "UNEC Model UN" klubunun təşkilatçılığı ilə keçirilən tədbirdə Azərbaycanın 7 ali təhsil ocağından 50-ə yaxın yerli və əcnəbi tələbə iştirak edib. BMT-nin "Dayanıqlı İnkişaf Məqsədləri" proqramının qəbul olunmasına həsr edilən konfransda "Təbii resursların dayanıqlı istifadəsi" mövzusunda müzakirə aparılıb.

Rəsmi açılışda Azərbaycan Respublikası təhsil nazirinin müavini Firudin Qurbanov, gənclər və idman nazirinin müavini İntiqam Babayev, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin rəisi Anar Bədəlbəyli, BMT-nin İnkişaf Proqramı Strateji Əməkdaşlıq üzrə müşaviri Məzahir Əfəndiyev, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Ədalət Muradov çıxış edib. Qonaqlar məruzələrində keçirilən tədbirin əhəmiyyətindən, gənclərə verdiyi töhvədən danışıblar. Bildirilib ki, bu cür konfranslar tələbələrin dünyagörüşünü artırmağa, elmi debatlara olan marağı yüksəltməyə müsbət təsir edəcək.

Daha sonra öz işinə başlayan simulyasiya konfransında ölkə "deleqasiyaları" öz çıxışlarını edib. Tələbələr ölkələr üzrə təbii resursların səmərəli istifadəsindəki təkliflərini səsləndiriblər. Neft ixrac edən ölkələri təmsil edən tələbələr təbii resurlardan istifadənin qlobal proqramının hazırlanmasını təklif edib. Qlobal enerji təminatı və təhlükəsizlik siyasətinin formalaşdırılması üçün müəyyən "yol xəritəsi" müəyyənləşdirilib.

Konfransın formatına uyğun olaraq mövzu ətrafında iştirakçılar diskussiya xarakterli debatlar aparıblar. "Təbii resursların dayanıqlı istifadəsi" mövzusunun yekunu olaraq iştirakçılar tərəfindən qətnamə qəbul edilib.

İki gün davam edəcək konfransın bağlanış mərasimində iştirakçılar sertifikatlarla təltif olunacaq. Konfransda ən yaxşı 4 nümayəndə xüsusi "Ən yaxçı təmsilçilik" mükafatı ilə təltif ediləcək.

ERUDİSİYA YARIŞMASINDA ƏLDƏ ETDİYİMİZ GÜMÜŞ MEDAL

Təhsil Nazirliyinin təşkilatçılığı, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə Azərbaycan İntellektual Klublar Assosiasiyası tələbələr arasında "Nə? Harada? Nə zaman?" oyunu üzrə 2015-ci il üçün Azərbaycan çempionatı keçirib. Azərbaycan dilində təşkil edilən yarışda 30-dan çox ali təhsil müəssisəsinin komandaları iştirak edib.

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) "İqtisadçı İntellektual Klubu" ikinci yeri tutaraq, gümüş medal və kubok qazanıb. Komandanın koordinatoru, Beynəlxalq münasibətlər kafedrasının baş müəllimi Anar Eyyubov, kapitanı Türyan Məmmədov, üzvləri isə Məhəmməd Abbasov, Çingiz Məmmədov, Elçin Şabanov, Ürfan Orucov, Tərlan Əsədlidir.

Çempionatda birinci yerə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının komandası, üçüncü yerə isə Bakı Dövlət Universitetinin komandası layiq görülüb.

Qeyd: "İqtisadçı İntellektual Klub"u yarandığı müddətdən iştirak etdiyi bütün yarışlarda UNEC hər zaman ilk üçlükdə yer alıb. Klub ölkənin ən güclü komandalarından biri olaraq qalır.

QAFQAZIN TƏHLÜKƏSİZLİK PROBLEMLƏRİ ALİMLƏRİMİZİN GÖZÜ İLƏ

Noyabrın 18-də Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Gənc Alimlər Şurası Beynəlxalq İqtisadi Münasibətlər fakültəsində elmi seminar keçirib. Seminarda Azərbaycan Milli Məclisinin Analitik Araşdırmalar şöbəsinin müdir müavini, siyasi elmlər doktoru Hatəm Cabbarlı Ermənistanın xarici siyasəti və təhlükəsizlik məsələsi barədə geniş məruzə ilə çıxış edib. Ermənistan xarici siyasətini formalaşdıran faktorlardan söz açan H.Cabbarlı erməni milli kimliyi, mədəniyyəti, asiyalı, şərqli, xristianlıq, geosiyasi mövqe, coğrafi amillər, sərhədlər və coğrafi bütünlüklərdən danışıb. Sərhədlərin genişliyi və strateji ehtiyatlar, bəşəri amillərdən söz açan məruzəçi Ermənistan ordusunun qurulması, iqtisadi srtukturu və xüsusiyyətlərindən danışıb.

Ermənistanın xarici siyasətində təhlükəsizlik anlayışından danışan H.Cabbarlı bölgədəki problemləri – Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edilməsi, Gürcüstanda Abxaziya, Acarıstan və Cənubi Osetiya problemi, bölgə dövlətlərinin Rusiya ilə münasibətləri, hərbi nəzarət, silah qaçaqmalçılığı və təhlükəsizlik, Qara dənizdə sərhədlərə nəzarət edilməsi, Xəzər dənizinin hüquqi statusu, neft boru kəmərlərinin təhlükəsizliyi, bölgənin siyasi bütünlüyü və əməkdaşlıq perspektivləri, iki milyona yaxın qaçqınların mövcudluğu problemi kimi təsnif edib. Məruzəçi ermənilərin militarist siyasətinin region üçün təhlükəsini elmi faktlarla əsaslandırıb.

Elmi seminar professor-müəllim və tələbələrin müzakirəsi ilə davam edib.

UNEC səmti düzgün müəyyən edir

06-08 noyabr 2015-ci il tarixində Universietimizin "İqtisadçı "idman klubunun "Səmti müəyyən"etmə komandası iki qız beş oglan olmaqla Azərbaycan Respublikası Gənclər və İdman nazirliyinin Şabran-Xacmaz rayonlarında Qalaaltı və Nabran qəsəbəsində təşkil etdikləri Açıq Ölkə Çempionatında işirak etdilər.

Yarışda idmançılardan dözümlülük keyfiyyətləri, iradə və hər hansı bir böyk ərazidə-meşədə,çöllük sahədə bir-birindən 500-1500 məsafədə yerləşdirilmiş 7-13 məntəqəni xəritə və kompasın köməyi ilə ardıcıl daha tez təyin etməyi tələb edir. Müharibə şəraitində, torpaqlarımızın 20%-indən çoxunun dşmən işgalı altında oldugu bir vaxtda "səmti məyyən etmə " idman növü gənclərimizi həm hərbi vətənpərvərliyə səsləyir, həm də döyüş bölgələrində mövqelərin, canlı qüvvə və texnikanın yerləşməsini düzgün təyin etmək vərdişlərinin aşılanmasına hazırlayır.

Yarışda Sərhəd Qoşunlarını, Dövlət Müdaiə xidməini, Mudaiə nazirliyini, Fövqəladə Hallar nazirliyini, müxtəlif idman cəmiyyətlərini, Universitetləri təmsil edən 200-dək idmançılar qüvvələrini sınamışlar. Tələbələrimiz verilmiş bütün məntəqələri düzgün və tez təyin edərək Open K-21 və Open K-21 məsafələrində yaxşı nəticələrə nail oldular. Buna görə də İqtisad Universitetinin komandası Universitetlər arasında ən çox xal qazandıqları ücün Fəxri Diplomla mükafatlandırıldı. Bu işdə "iqtisadçı" idman klubunun məşqçi – müəllimi Qəzənfər Cəfərovun rəhbərliyi ilə aşagıdakı idmançılarımızın böyük əməyi olmuşdur.

1.Nəbiyeva Mehriban- İnformatika.

2.Cəfərzadə Əfsanə - İnformatika.

3.Heravazov Anar - Kommersiya.

4.Zəkəriyyəyev Elçin - Maliyyə və mühasibat.

5.Mirzəyev Təbriz - Maliyyə və mühasibat.

6.Allahyarov Süleyman- Sənaye və İqtisadiyyat.

Komandanı yarışlara ezam edilməsində göstərdiyi köməyə görə Unversitetimzin rektoru prof.Ə.C. Muradova və komandanın hazırlanmasında əməyinə görə "İqtisadçı" idman klubunun müdiri dos. S.Nəbiyevə təşəkkürümüzü bildiririk.

Qəzənər Cəfərov.

Mədəni irsimizdən

Məhəmməd şahın sui-qəsdi

Hindistan şahı Məhəmməd şah Dehlidə Nadir şaha sui-qəsd hazırlayır, onu qonaq dəvət edir. Bir dəstə silahlı adama tapşırır ki, məclisdə elə ki, mən əl çaldım, içəri girib Nadir şahı öldürsünlər. Silahlı dəstə müəyyən olunmuş yerdə məclis qurtarana qədər gözləyir. Məhəmməd şahdan səs çıxmır. Məclis qurtarandan sonra ondan soruşurlar ki, bəs niyə əl çalmadın? Məhəmməd sah: "Nadir şahın mərdanə xarici görünüşü, onun əzəməti və nüfuzu məni elə təsiri altına aldı ki, heç nə edə bilmədim. Mənə elə gəldi ki, siz içəri girən kimi Nadir şah məni öldürəcəkdir"- deyə cavab verir.

Nadir şahın tac bağışlaması

Nadir şah Hindistanı tutduqdan sonra Dehlidə qonaqlıq edib, Hindistan şahı Məhəmməd şahı da dəvət edir. Ziyafətdə Məhəmməd şahın qiymətli, cəvahirli papağını götürüb öz başına qoyur, öz dəmir nişanlı papağını isə onun başına qoyur. Məhəmməd şah hakimiyyəti ona qaytardığı üçün Hindistanın 250 illik xəzinəsini Nadir şaha bağışlayır.

Nadir şahın qüdrəti

Dehlidə kütləvi qırğından sonra bir hindli qadın, bir qutu cəvahiri gətirib xahiş edir ki, onu əsgərlərə versinlər. Nadir şah bunun səbəbini soruşduqda qadın cavab verir: "Əsgərlər talanla məşğul olduğu vaxt iki əsgər onun evində talan vaxtı cəvahir olan qutunu tapır, qapağını açıb içindəki cəvahirləri öz aralarında bölüşmək istərkən, sənin carçın uca səslə qışqırıb deyir: "Şahın fərmanı ilə qətl və qarət dayandırılmışdır". O iki nəfər qalxıb talandan əl çəkir, qutunu cəvahiri ilə birlikdə orada qoyub, evdən gedirlər. Sənin qüdrətinə və əsgərlərinin intizamlı olmasına mükafat olaraq, bu qutunu sizə təqdim edirəm".

Qurbağaların itaəti.

Nadir şah Mazandaran şəhərlərinin birində bir qəsrdə yatmaq istəyir. Hovuzdakı qurbağaların səsi onu yatmağa qoymur. O, Mirzə Mehdi xanı çağırıb deyir:

- Get qurbağaların səsini kəs. Şahın hökmü mütləq idi. Mirzə Mehdi xan oturub bir qədər fikirləşdikdən sonra göstəriş verir. Bir neçə qoyun kəsib, bağırsaqlarını çıxarıb təmizləyirlər, içini hava ilə doldurub hovuza atırlar. Qurbağalar bağırsağı ilan bilib səslərini kəsirlər.

Darı kisəsi və xoruz.

Türk səfirlərindən biri Nadir şahın görüşünə gələrkən bir kisə darı gətirib yerə səpir, guya bildirmək istəyir ki, Osmanlı ordusu darı kimi saysızdır.

Nadir şah bunu başa düşür, göstəriş verib bir neçə xoruz gətizdirir. Az müddətdə xoruzlar darını dənləyib qurtarırlar.

Qan iyi.

Dağıstanla vuruş zamanı Nadir şah Araz qırağında, daş üstündə oturub naharını soğanı əzib yeməklə keçirirdi. Həmin vaxt onun qanlı qılıncı da qucağındaymış. Elə oradaca rus səfirini çağırtdırıb ona deyir: "İranda olan rus komandalarına de, tezliklə İran şəhərlərini tərk eləsinlər. Eləməsələr bu qılıncla onlara hücum edib, başlarını vurub, bütün ölülərini dənizə tullayıb, başların da rus imperatoruna göndərəcəyəm". Səfir Nadir şahın dediklərini rus çarına yazıb, bildirir ki, "Nadir şahı gördüm, üstündən qan iyi gəlir, məsləhətdir ki, ordumuz İranı tərk etsin". Rus imperatoru rus ordusunun İrandan çıxarılmasına əmr verir.

Yusif Fərzəliyev,
Azərbaycan tarixi
kafedrasının dosenti

Elanlar

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Ələkbərzadə Ələkbər Malik oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Qurbanlı Nurlan Səfər oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Əliyev Yavər Həzi oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Kərəmova Tərlalə Firdovsi qızına verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Qarayev Orxan Hamlet oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Əmirəliyev Mehman Elxan oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Məmmədli Sərxan Əsgər oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Cəlilov Nurlan Xıdırnəbi oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Əliyeva Xalidə Asif qızına verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Məmmədov Əvəz Eynulla oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Zeynalzadə Vasif Akif oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Babayev Vaqif Sərbəst oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Cəfərli Şəhrəbanu Akif qızına verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Əzizov Məharət Məhəbbət oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən İskəndərli Rüfət Mərdan oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Abdullazadə Balahəsən İmran oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Bayramlı Təhmin Zülfüqar oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Bayramzadə Nazim Pənah oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Rəhmanova Aysel Elçin qızına verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Didakunan Rəşad Pərviz oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Baş redaktor: Anar Eyyubov
redaktor-korrektor
Xatın Qocayeva

Müxbir-İlahəxanım Həsənova
Səhifələyici-Turan Cavadova
Fotomüxbir R.Məmmədov, K. Cəlilov

Telefon: 4926819
Ünvan: Bakı 370001
İstiqlaliyyət küçəsi 6.

Lisenziya259
Sifariş 1673
Sayı 300